# Vətən müharibəsindən sülhə uzanan şanlı tarix

**"Azərbaycan dövləti və Azərbaycan xalqı bir yumruq kimi birləşdi və biz Ermənistanı cəmi 44 gün ərzində kapitulyasiya aktını imzalamağa məcbur etdik. 44 günlük Vətən müharibəsi şanlı tariximizdir. Biz hər gün irəli gedirdik. Bir dənə də olsun döyüş meydanını tərk edən olmamışdır. Bir dənə də olsun fərari olmamışdır. Yəni bu, xalqımızın yüksək keyfiyyətlərini göstərir və onu göstərir ki, bütün xalqımız və Silahlı Qüvvələr Vətən uğrunda ölümə getməyə hazır idi".**

Bu fikirləri Prezident İlham Əliyev Kəlbəcər şəhərinə ilk köç edən sakinlərlə görüşündə deyib. Vətən müharibəsindən başlayan şanlı yol 5 il ərzində həm hərbi, həm də diplomatiya masasında qələbələrlə davam edir. 2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusu cəmi 44 gündə əks-hücum əməliyyatı nəticəsində 5 şəhər, 4 qəsəbə və 286 kəndi işğaldan azad etdi. 30 il ərzində münaqişənin həlli istiqamətində heç bir iş görməyən, hərbi yolla həllinin mümkünsüzlüyünü ifadə edən beynəlxalq təşkilatlara cavab olaraq Azərbaycan müddətsiz danışıqlara öz gücü ilə son qoydu. 8 noyabr zəfərimizin Şuşa zirvəsi ilə Azərbaycan artıq qalib ölkəyə çevrildi.

Azərbaycanın zəfəri yalnız hərb meydanı ilə başa çatmadı. Məğlub tərəf olaraq 10 noyabr tarixli üçtərəfli Bəyanata imza atmağa məcbur olan Ermənistan razılaşmaya əsasən, Ağdam, Kəlbəcər və Laçın rayonlarını döyüşsüz təslim etdi. Beləliklə, şanlı tariximizə daha bir səhifə yazıldı. Bu, Azərbaycanın həm də siyasi müstəvidə qələbəsi idi.

Azərbaycan torpaqlarını düşmən tapdağından azad etsə də, ərazilərimizdə qanunsuz qalan erməni hərbi birləşmələri tez-tez müxtəlif təxribatlar törədərək təhlükə yaradırdılar. Buna görə Azərbaycan separatçıların ərazilərimizdən çıxarılması istiqamətində bir sıra uğurlu əməliyyatlar həyata keçirdi. 2022-ci ilin mart ayında Azərbaycan Ordusunun qələbəsi ilə başa çatan Fərrux əməliyyatı nəticəsində Xocalı rayonunun Fərrux kəndi, Fərrux dağı, "Daşbaşı" yüksəkliyi və "Sağsağan" dağ silsiləsi qanunsuz erməni silahlılarından təmizləndi. Bununla Xankəndi-Ağdərə avtomobil yoluna Azərbaycan Silahlı Qüvvələrinin vizual nəzarəti təmin edildi.

## "Qisas"dan suverenliyə...

Azərbaycan Ordusunun qanunsuz erməni hərbi birləşmələrinə qarşı növbəti uğurlu "Qisas" əməliyyatı isə avqust ayında baş tutdu. Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərimizdə qalan erməni tör-töküntüləri avqustun 3-ü səhər saatlarında Laçın rayonu istiqamətində yerləşən Azərbaycan Ordusu bölmələrinin mövqelərini intensiv atəşə tutmağa başladı. Bununla Qırxqız yüksəkliyini ələ keçirmək və orada yeni döyüş mövqelərini qurmağa cəhd göstərən qeyri-qanuni erməni hərbi dəstələrinin cavabı verildi. Həmçinin Qarabağ silsiləsi boyunca Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər Azərbaycan bölmələri tərəfindən nəzarətə götürüldü. Uğurlu "Qisas" antiteror əməliyyatından sonra isə avqustun 26-sı Azərbaycanın zəfər tarixinin xüsusi günlərindən biri oldu - ermənilər Laçın şəhəri, Zabux və Sus kəndlərini boşaldaraq əzəli sahiblərinə qaytardılar.



Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Azərbaycanın əsas hədəfi bütün ərazilərin suverenliyini tam bərpa etmək idi. Bunun üçün isə Ermənistanın üçtərəfli bəyanatla üzərinə götürdüyü, amma yerinə yetirmədiyi erməni silahlı qüvvələrinin geri çəkilməsi öhdəliyini Azərbaycan yenə özü yerinə yetirməli oldu. 2023-cü il sentyabrın 19-da başlanan antiterror tədbirləri sentyabrın 20-də uğurla başa çatdırıldı. Dövlət başçısı bu tarixə nəzə salaraq deyir: "O vaxtdan 2023-cü il sentyabrın 19-na qədər bizim qarşımızda duran əsas hədəf ölkəmizin suverenliyini tam bərpa etmək idi. O tarixi siz yaxşı xatırlayırsınız, həm dırnaqarası Laçın dəhlizini yox etmək və bunu Laçın-Xankəndi yoluna çevirmək, həm Ermənistan-Azərbaycan sərhədində Laçın istiqamətində nəzarət-buraxılış məntəqəsinin yaradılması, eyni zamanda 2020-ci ilin noyabrından 2023-cü ilin sentyabrına qədər önəmli strateji nöqtələrin götürülməsi, "Fərrux", "Qırxqız", "Sarıbaba" əməliyyatları - bütün bunlar şanlı tariximizdir və bütün bunlar məqsədyönlü siyasətimizin bir hissəsi idi. Təbii ki, o vaxt biz bir çox şeyləri dilə gətirmirdik, buna ehtiyac da yox idi. Ancaq hədəfə doğru gedirdik ki, bizim torpağımızda bir dənə də olsun separatçı qalmamalıdır. Separatizmin başı əzilməlidir, kökü kəsilməlidir və bunu da etdik. Cəmi bir neçə saat davam edən antiterror əməliyyatı nəticəsində separatçı xunta kapitulyasiya aktına imza atdı. Öz saxta dırnaqarası respublikasının guya süquta uğramasını əks etdirən sənəd imzaladı".

Qanunsuz birləşmələrin məhv edilməsi ilə separatizmin kökü kəsildi, Azərbaycan suverenliyini tam bərpa etdi. Qarabağda təhlükəsizliyin qarantına yol açan antiterror əməliyyatları dövlət başçısının da qeyd etdiyi kimi, 8 noyabr qədər şərəfli və tarixi günlərdir. Uğurlu əməliyyatların nəticəsi olaraq bu gün Azərbaycan xalqı 20 sentyabrı Dövlət Suverenliyi Günü kimi qeyd edir.

## Tariximizin parlaq səhifələri

2020-ci ildən başlayan şanlı tariximizə Prezident İlham Əliyevin qətiyyətli iradəsi, apardığı uğurlu daxili və xarici siyasəti, dönməz mövqeyi sayəsində möhtəşəm hadisələr yazılıb. Azərbaycanın nüfuzunu dünyada möhkəmləndirən, gücünə güc qatan hər bir qalibiyyət və uğur Cənubi Qafqaza sülhü gətirən böyük lider İlham Əliyevin uğurlu siyasəti, gərgin əməyidir.

İkinci Qarabağ savaşından dərhal sonra işğaldan azad edilən ərazilərdə başlayan tikinti-quruculuq işləri nəticəsində bərpa edilən və yenidən qurulan hər bir şəhər, kənd Azərbaycanın iqtisadi gücünün bariz nümunəsidir. Aparılan sürətli bərpa işlərinin nəticəsi idi ki, Vətən müharibəsindən iki il ötməmiş Azərbaycan şərəfli tarixinin Böyük qayıdış səhifəsini də açdı. Bu, illərlə gözüyaşlı, doğma yurdundan didərgin düşmüş vətən həsrətlilərinin arzularının gerçəkləşdiyi gün idi.

Azərbaycanın Zəfər tarixindən danışarkən 2025-ci ilin avqustun 8-ni xüsusi vurğulamaq lazımdır. Sülh gündəliyinin müəllifi Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin ifadəsi olaraq Vaşinqtonda keçirilən sülh sammiti tarixi görüş kimi yadda qaldı. Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq hazırladığı sülh müqaviləsinin mətni, yəni ölkəmizin irəli sürdüyü şərtlər Ermənistan tərəfindən qəbul olunaraq paraflandı. Beləliklə, Prezident İlham Əliyev uzaqgörən, qətiyyətli mövqeyi ilə Cənubi Qafqaza əmin-amanlığı, təhlükəsizliyi, sabitliyi gətirən daha bir uğura imza ataraq şanlı tariximizin daha bir parlaq səhifəsini yazdı.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 23 avqust (№177).- S.7.